**UOT 82-3.512.162**
**DOI 10.52094/152412.43.2023.44**

**Nigar Rafiq qızı Rüstəmova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,**
**Tədris işləri üzrə prorektor**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**
**nigar.rustamova@admiu.edu.az**

# SABİT RƏHMAN YARADICILIĞINDA "MÜDRİK QOCA" VƏ "TRİKSTER" FUNKSİYALARININ GERÇƏKLƏŞMƏ PRİNSİPLƏRİ

**Xülasə:** Məqalə Sabit Rəhmanın "Ərəboğlu" hekayəsində "Müdrik qoca" və "Trikster" funksiyalarının gerçəkləşmə prinsiplərinin arxetip nəzəriyyəsi və binar oppozisiya əsasında təhlilinə yönəlib. Bu arxetiplərin transformasiyası milli invariant nümunələrdə izlənilmişdir. "Ağsaqqal" – "Quldur", "Revkom Məbud" (İnqilab Komissarı) – "Ərəboğlu" ikililiyində "Müdrik Qoca" – "Trikster" əks cütlüyün invariantları üzə çıxarılır. İnsanın xarici aləmə reaksiyasına şüursuz da olsa, təsir edən universal dəyişməz strukturlar müəyyən edilir.

**Açar sözlər:** binar əkslik, arxetip, kollektiv şüursuzluq, "müdrik qoca", "trikster"

**Giriş:** XX əsr Azərbaycan mədəniyyəti maraqlı fenomenlərlə səciyyələnir. Bu əsr də xalqımızın fiziki, mənəvi özgüvəninin imtahana çəkildiyi dövrlərindən biri olmuşdur.

Bifurkasiyadan sonra zorən yad kurallarla yeni inkişaf paradiqmasında varoluşu davam etdirmək, ayaqda qalmaq lazım idi. Milli kimlik təhlükə altına alınmışdır. Bifurkasiya nöqtələrində və sonrakı dönəmlərdə azərbaycanlıların ruhsal, mənəvi tarazlığının qorunub saxlanılmasını ən müşkül məsələlərdən biri kimi qəbul etmək olar. Həmin tarazlığın əldə edilməsində, mədəniyyətimizdə, humanitar və bədii təfəkkürümüzdə invariant, sabit olanların qorunub saxlanılmasında və yeni tarixi şəraitə adaptasiya edilməsində daha çox Rəhman təxəllüsü ilə tanınmış Sabit Kərim oğlu Mahmudovun da xidmətləri vardır.

Sabit Rəhman yaradıcılığının alt qatını təşkil edən məlum tarixi, sosio-mədəni hadisələrlə (rus imperiyasının süqutu, Azərbaycan cümhuriyyətinin yaradılması və süqutu, yeni Rusiya tərəfindən Azərbaycanın işğalı və sovetlər sisteminin yaradılması, əlifbanın dəyişdirilməsi, kollektivləşdirilmə, bolşevik inkvizisiyası, Cahan müharibələri və s. hadisələrlə) yanaşı, bədii mətndə kollektiv şüursuzluğun ifadəsi, simvolu olan müxtəlif arxetiplərin funksiyalaşması da böyük əhəmiyyət kəsb edir.

**Əsas mətn:** Yazarın ərsəyə gətirdiyi obrazlar sistemində, yaratdığı situasiyalarda və təhkiyə tərzində bineyi-qədimdən məlum olan universal arxetiplərin və onların lokal variasiyalarının, həmçinin əks mənalı cütlüklərin izlənilməsi sənətkarın xarici təsirlərə refleksiyasına aydınlıq gətirə bilər. Karl Qustav Yunq və Klod Levi Stross (4, 5, 6) əks cütlküləri – binar oppozisiyanı arxetipik təfəkkürün özəl cəhəti və varlığın dərkində strukturyaradıcı prinsip kimi qiymətləndirmişlər. Bu deməkdir ki, mövcud situasiyaya reaksiyada, insanın hissi-emosional aləminin təqdimi və təsvirində, varlığın dərk edilməsində, ümumiyyətlə təfəkkürün formalaşmasında təhtəlşüurmuzun güzgüsü arxetiplərlə yanaşı, üfüqi və şaquli binar əksliklər – həyat-ölüm, sakral-profan, xeyir-şər, aşağı-yuxarı, pis-yaxşı, qara-ağ, kişi-qadın, isti-soyuq, böyük-kiçik, ağıllı-dəli və s.-lər hipermətn xalısının əvəzedilməz struktur elementləridir.

"Xaos"-"Kosmos", "kortəbii-nizamlı" əks binar cütlük "müdrik qoca" (mədəni qəhrəman)-

“trikster” oppozisiyasında əsas funksiyalarını qoruyur, bəzən “müdrik qoca” və “trikster” binarlığı “sakral-zorakılıq” ideyasını da gerçəkləşdirir.

“Müdrik qoca” arxetipi paradiqmasına aid olan mədəni qəhrəman çoxsaylı variativ obrazlarda ortaya çıxır. Arxetipin yol göstərmək, çıxılmaz durumlarda kömək etmək, məsləhət vermək, barış və sülhə nail olmaq, ənənəni qorumaq kimi funksiyaları ilə bərabər, sakral biliklərin daşıyıcısı və ötürücüsü funksiyası da vardır. Qeyd edilən funksiyalar zaman, məkan, milli mənsubiyyətdən asılı olmayaraq mövcuddurlar, universaldılar.

Hamıya yaxşı bəlli olan universal arxetiplərin lokal variantları isə konkret zaman və məkanla şərtlənir, müəyyən bir mədəniyyətdə təzahür edir. Tanrı, dədə, başçı, dağ, dəniz, şeyx, dərviş, pir, molla, zahid, rəhbər, seyid, ağsaqqal və s. obrazlar Azərbaycan ədəbiyyatında “müdrik qoca” – mədəni qəhrəman arxetipinin lokal variasiyalarıdır.

“Müdrik qoca” – mədəni qəhrəman arxetipinə əks funksiyanı isə “trikster” yerinə yetirir. Oyunbzalıq, kələk gəlmək, çaşqınlıq yaratmaq, aranı qatmaq, mərəkə düzəltmək, həngamə açmaq, mövcud qaydalara qarşı çıxış etmək kimi funksiyaların ifadəçisi trikster də folklor nümunələrində və yazılı ədəbiyyatda geniş təmsil olunubdur. Tülkü, təlxək, fırıldaqçı, kələkbaz, quldur obrazları trikster funksiyasını daşımaqla universaldılar. Qeyd edək ki, triksterə ambivalentlik xasdır. Məsələn, folklordan məlum olan Molla Nəsrəddin, Bəhlul Danəndə obrazları (K.Q.Yunqa görə trikster “kölgə” arxetipinin variantıdır).

Arxetipin universallıqdan lokallığa çevrilməsi arxetipin milli libasa bürünməsindən əlavə, zəmanəyə, məkana və ideolojiyə bağlılıqdan yaranır. Mövcud durumun və şəraitin yaratdığı ovqat, emosiya təhtəlşüur olaraq müəyyən bir simvolla, arxetipik obrazla ifadə edilir və əsasən, binar əkslik şəklində strukturlaşır. Əlahəzrət şüursuzluq baş verənlərin təsirini minimuma endirmək, ruhi tarazlığın pozulmaması üçün simvollar vasitəsilə refleksiya olunur və bu, yaradıcılıq prosesində də keçərlidir.

Bu baxımdan, Sabit Rəhman yaradıcılığı bifurkasiyadan sonra özünütəşkilə can atan mədəniyyətin refleksiyasına aynalıq edə bilər. “Homo sovetikus”un formalaşmasına, ateizm, sosializm-kommunizm ideyası və dəyərlərinin cəmiyyətdə bərqərar olmasına könüllü-könülsüz töhfə verən Sovet Azərbaycanının yaradıcı şəxsləri özünəməxsus əksetdirmə və ifadə tərzləri ilə seçilirdilər. Sabit Rəhman da fərqli bir yol seçir – o, mərəkə içində məzhəkədən danışmağı üstün tutur.

Məzhəkə triksterin əl-qol açdığı yerdir. Azərbaycan ictimai fikrində “Trikster”lik funksiyasını yerinə yetirən və triksterin lokal versiyasının – Molla Nəsrəddinin adını daşıyan jurnalda gənc Sabit Rəhman Şeyx Samit təxəllüsünü özünə rəva bilərək felyetonlar yazır. Vaxtilə sakral pir, müdrik qoca statuslu “Şeyx” məzhəkəyə, komik lətifəyə üz tutur. Şeyxləri, dərvişləri, mollaları nüfuzdan düşmüş sosial qrupa aid etmək təcrübəsi Azərbaycan ədəbiyyatında yeni mövzu deyildi, sovetlərdən öncə də müşahidə edilirdi (Hüseyn Cavidin Şeyx Sənanı əlbəttə ki, istisna olacaqdır). Sabit Rəhman yaradıcılığı boyu Axundzadəsayağı “şeyxliyi”, “mollalığı” dekonstruksiyaya uğratmaq həvəsində bulunub həyata keçirmiş olsa da, köhnə miflərin yeniləri ilə əvəz olunması işində milli konseptlərdən imtina etmək fikrində olmamışdır.

Köhnə dünyadan təzə dünyaya nələri daşımağa müvəffəq olmuşdur? Bir çox sosial, milli düşüncə və davranış stereotiplərini dağıtmağa çalışan yazar universal olan “müdrik qoca” – “trikster” arxetipinin lokal variantı “ağsaqqal” – “qaçaq-quldur” arxetipi vasitəsilə milli yaddaşda iz qoyan məfhumları gündəmdə saxlamağı bacarmışdır. Həmin arxetiplərin funksiyalarının gerçəkləşmə prinsiplərinə 1963-cü ildə qələmə alınmış “Ərəboğlu” hekayəsi nümunəsində nəzər salmağı təklif edirəm.

Binar oppozisiya hekayədə iki əks qütbün təmsilçiləri olan obrazlardan ibarətdir: yeni qayda-qanunların keşikçisi, rayonun, necə deyərlər, "ağası" – revkom (rusca revolyutsionnıy komissar, yəni inqilab komissarı) və köhnə aləmin kölgəsi, quldur dəstəsinin başçısı. Hekayədə bizim üçün maraq kəsb edən məqamlar qastrol səfərində tamaşaçı yığa bilməyən aktyor truppasının geri dönüşlərində haqqında eşitdikləri Ərəboğlu ləqəbli quldurun basqın edəcəyindən ehtiyatlanaraq mühafizəçi təvəqqesi ilə revkom Məbud kişiyə üz tutmaqlarından başlayır. Hadisələrin məhz həmin yerindən "müdrik qoca" arxetipinin funksiyası, yəni müşkülləri çözmək, xilas etmək funksiyası gerçəkləşməyə başlayır.

Bifurkasiyada sonra yeni sistem, yeni sosium öz xilaskarına ehtiyac duyur və əzəli xilaskar funkasiyası lokal və ideolojiyə uyğun biçimdə meydana çıxır. Hekayədə ateizmi dövlət ideologiyasının təməl prinsipi kimi qəbul edən, Allahı inkar edən sovet quruluşunun təmsilçisi "sitayiş edilən şey" mənasını verən Məbud ismi ilə adlandırılıb. Bunu kollektiv şüursuzluqda yerləşən və müəyyən vaxta qədər mürgüləyən, latent hissi – emosional və ruhi tələbatın simvolu kimi qiymətləndirmək olar. Sabit Rəhman müxtəlif zəmanələrin öz məbudunun olmasını məqbul hesab edərək yeni xilaskarı ənənəvi funksiyalardan məhrum etmir.

Qeyd edildiyi kimi, milli invariant – "ağsaqqal"ı zəmanəsinə uyğun libasda – revkom libasında olsa belə yaşatmaq, müəllifin yalnız şüurlu yanaşmasından irəli gəlmirdi. Bəşər övladının kollektiv təhtəlşüurunun dərin qatlarında formalaşan bu simvol qarışıqlığın, müşkülün aradan qaldırılmasına ehtiyac duyulduğu vaxt üzə çıxır.

Sabit Rəhmanın təsvirində "müdrik qoca" kanonik şəkildə təqdim edilib: "Revkom Məbud kişi ucaboy, xoşsifət bir qoca idi. Uzun bığları vardı və bu onu bir az Koroğluya bənzədirdi. Kənardan baxana elə gələ bilərdi ki, Məbud kişi bütün günü heç bir iş görmür, yalnız bığlarım eşməklə məşğuldur (müdriklərə, filosoflara xas cəhət – sükunət və seyr – N.R.). Ancaq elə deyildi. "Məbud kişi on beşinci ildən partiyanın üzvü idi. Mübariz, tədbirli adam idi" (1, s.276). Təhkiyəçinin müsbət qəhrəmanının zahiri görünüşünün təsvirində verdiyi detal – ucaboy, xoşsifət - müvafiq olduğu arxetipə xasdır. Əsərin qəhrəmanı ucaboydur, deməli əzəmətlidir. Məbudun boyunun ucalığı bədii təfəkkürdə "müdrik qoca" arxetipi funksiyasını ifadə edən "Dağ"dan nəşət edir. Mifik çağlardan "Dağ" sakraldır, müqəddəsdir, Allahların məskənidir, "Dağ" xilaskar, ümid yeri kimi assosiasiyalar doğurur. "Dağ" "müdrik qoca" funksiyasını yerinə yetirməklə, Yer-Göy əks oppozisiyasında sakralla profanın arasında birləşdirici elementdir. Hekayədə hadisələr dağ rayonlarının birində cərəyan edir. Bu bir.

İkincisi, "Müdrik qoca" arxetipinin lokal "ağsaqqal" variantında, adətən, nuranilik əsas əlamətlərdən biridir. Lakin hər qoca da nurani olmur, çünki nuranilik mənəvi paklığın rəmzi olaraq, həm də sakral, batini biliklərə vaqifliyin nişanəsidir. Məbudun xoşsifətliyini nuraniliklə eyniləşdirmək olar. Heç olardımı adı Məbud olan işıqlı, xoş sifət olmasın?! Müəllif təqdim etdiyi "ağsaqqalı"na mümkün müsbət sosial statusları yaraşıdırır – "ağsaqqal"ın semantikasında seçilmişlik mənası da var. Sabit Rəhmanın qəhrəmanı da seçilmişlərdəndir – o, revkomluq vəzifəsini daşıyır – yeni sistem tərəfindən bəyənilir ki, vəzifədədir, daha sonra hörmət əlamətini göstərmək üçün yazıçı Məbud adından sonra "kişi" sözünü əlavə edir, sanki "ağsaqqal" funksiyasını daşıyan obrazı Məbud adlandırmaq yetərli deyilmiş...

Bu azmış kimi onu Koroğlu ilə də müqayisə edir. "Koroğlu" ilə müqayisənin yalnız zahiri bənzətmə olduğunu (bığlarının uzunluğuyla – N.R.) düşünmürük, xalqın və müəllifin yaddaşında, əlbəttə ki, Koroğlu obrazı milli qəhrəmanlıq simvolunun təzahürüdür, o, dada çatır, zalımlara qənim kəsilir, tədbirlidir, ilahidən verilmiş qüdrətə malikdir, bir sözlə, Dədə Qorquddan sonrakı dövrün "ağsaqqalı" statusunun daşıyıcısıdır.

Bir daha funksiya və ad məsələsinə qayıdaq. "Revkom Məbud" birləşməsində Dədə kultunun təsiri var. "Dədə" və "Ağsaqqal" eyni arxetipin variasiyası olduqları üçün "Dədə"də gerçəkləşən sitayişolunma funksiyasını "ağsaqqal" Məbudda izləmək mümkündür. Deməli, "revkom Məbud" şəxsiyyətə pərəstiş dövrünün, ümumiyyətlə quruluşun analoqsuzluğuna pərəstişi səciyyələndirən söz birləşməsi kimi də təfsir edilə bilər.

"Revkom Məbud kişi" – müəllif qəhrəmanını sadəcə revkom Məbud adlandırsaydı, mədəni qəhrəman arxetipinin funksiyası Azərbaycan oxucusuna aydın olmayacaqdır, müsbət tərəfinə diqqət çəkilməyəcəkdir. Çünki miili düşüncədə "kişi" sözü məxsus çəkiyə malikdir, əgər şəxs adından sonra kişi sözü əlavə edilirsə, bu artıq adamın müəyyən yaş kateqoriyasına aid edilməsi deməkdir, həm də onun söz sahibi olmasına işarədir.

"Müdrik qoca" arxetipinin semantik dairəsinə "hər şeydən xəbərdar olmaq", "biliyə sahib olmaq' mənası da daxildir. Müəllif arxetipin qeyd edilən mənasını da qabardır. Hekayədə aktyor truppasının rəhbəri Aslan və Məbud kişinin dialoqunda revkomun klassik dramaturqlar – M.F. Axundov, V.Şekspir haqqında biliyə sahib olduğunun çatdırılması "müdrik qoca" arxetipi funksiyasının təyinatı üzrə gerçəkləşməsinə bir nümunədir ( 1, s.277).

Hekayədə "Müdrik qoca" ("Ağsaqqal")-"Trikster" binar oppozisiyada yer alan triksterin lokal variantı quldur Ərəboğludur, onun əməlləri arxetipinə uğun verilib. Triksteri səciyyələndirən əsas funksiyalardan biri də qəbul edilmiş qaydalara tabe olmamaq, etiraz etmək, mərəkə qoparmaqdır. Quldur haqqında müəllifin seçdiyi ifadələr – "...quduz canavar kimi rastına gələni dalayır" (1, 275) "...quldurlar göz verib işıq vermirlər" (1, s.276). "Sovet dövlətinin əmlakını ondan qoruyurlar. Tutulması ilə bağlı bütün rayonda səfərbərlik elan edilmişdi" (1, s.275).

"Trikster" – quldur Ərəboğlu nə oyun çıxardıbsa, hər kəs onu tutmaq üçün səfərbər edilib. Tutulacağı şəraitdən əvvəlcədən məlumat alan Ərəboğlu "Onlar mənim teatrımı çıxardırlar. Mən də onlar üçün bir teatr düzəldərəm ki, gülməkdən bağırsaqları qırılar" (1, s.280). Məbudun "Çox xudpəsənd adamdır, eşitsə ki, onun həyatından komediya oynayırıq, davam gətirməyəcək, tamaşanı pozmağa cəhd edəcək" (1, s.278) fikrində də arxetipin pozucu fəaliyyəti üzə çıxır. Ərəboğlu qanun-qaydanı pozur, mərəkəyə səbəb olur (səfərbərlik və rayon əhalisinin hamısının klubda deyil, havada oynanılacaq "Ərəboğlu" -"Otello" tamaşasına baxmaq üçün toplaşmaqları) və bunu davam etdirmək əzmindədir (hiylə işlədib evinin zirzəmisində gizlətdiyi qızılları götürüb aradan çıxmaq), deməli, Triksterin universal funksiyasını yerinə yetirir.

Bəs milli libas, ideolojiyə bağlılıq, yəni lokallıq müşahidə edilirmi? Cavab quldurun adı və zahiri görünüşü ilə bağlıdır. Sabit Rəhmanın təsvirinə diqqət edək – "Əslində "Ərəboğlu" onun adı deyildi, ləqəbi idi. Üzünün rəngi qapqara olduğu üçün bu cür çağırırdılar" (1, s.275). "Ərəboğlu həqiqətən zənci kimi qapqara, yekəsifət, yekəburun, eybəcər bir kişi idi, beş adamdan ibarət dəstəsi ilə bərabər meşədə, fısıllıq bir yerdə oturmuşdur" (1, s.279), "...o quldur bayquş kimi qaranlığı sevir, gündüz hücum eləməyə cürət eləmir" (1, s.278), "Soyur, talayır və müqavimət göstərəni öldürürdü" (1, s.275).

Binar oppozisiya göz qabağındadır – xoşsifətin əksi qara üz. Azərbaycan xalqının stereotip düşüncəsində "üz qaralığı" mənfi əməllərlə konnotasiya təşkil edir. Üzü qara Ərəboğlunun əməlləri də qaradır. Mifik və bədii təfəkkürdə qara qüvvələrin, xtonik varlıqların məskəni yerin altı, qaranlıq dünya, keçilməz meşəliklərdir. (Haqverdiyevin "Pəri-cadusu"nu xatırlayaq). K.Q. Yunqun nəzəriyyəsinə əsasən Trikster Kölgə arxetipinin (Persona – Kölgə (qaranlıq)) kollektiv obrazıdır. Ərəboğlu obrazı kollektiv şüursuzluğda sıxışdırılmış etirazı təcəssüm edir. Hər şeyin kölgəsi var, arxetip nəzəriyyəsində "kölgə" şəxsiyyətin basdırılmış hissləridir. "Kölgə"yə qalib gəlmək mənəvi harmoniyaya varmaq deməkdir.

Sovet dövrünün yaradıcı insanlarıtək Sabit Rəhman yeni yaşam qaydalarını qəbul etməyən sabiq taciri, keçmişdə mülklər, torpaq və dükanlar sahibi (sovet rejimində bunlar artıq adamın düşmən sayılmağına əsas idi, sinfi yanaşma – N.R.), sonra isə quldurluq edən Ərəboğluna məskən meşəni seçir, özü də meşənin fısıllığını. Bir paralellik gətirək. E.ə. 3500-ci ilə aid prototürk "Bilqamış" dastanında da yoldan keçənlərə saldıran qorxulu Humbaba meşənin keçilməz yerində yaşayır. Yaxud, Ərəboğlunun "zənci kimi qapqara, yekəsifət, yekəburun, eybəcər bir kişi" kimi təsviri Humababanın və nağıllardakı divlərin təsvirini xatırladır. Kollektiv şüursuzluğda təhlükə, Şər qaranlıqla eyniləşdirilir. Qaranlığı, şəri ifadə etmək üçün quldurun ləqəbini zahiri görünüşü ilə, rənginin qaralığı ilə əlaqələndirir yazar. Lakin incə bir məqam var – Ərəboğlu sözündə neqativ konnotasiya sezilir. Mənfi qəhrəman "Ərəb" "oğlu"dur. Hekayə sovet dövrünə aid olmasa idi, başqa qənaətlərə gəlmək olardı. Sovetlərdə dinə, xüsusən də, İslam dininə qarşı mənfi münasibət bədəməlli adamın ləqəbində spontanmı üzə çıxıb, yoxsa məqsədli şəkildə? Türkoğlu, Kürdoğlu ləqəbini daşıya bilməzdimi? (Yoxsa, 1910-cu ildə "Otello"da Otellonu oynayan aktyorun da soyadının Ərəblinski olmağının da müəllifə təsiri olmuşdur?) Ərəblər islam dininin ilk yaradıcıları və daşıyıcıları olduqları üçün onların düşmən obrazı ilə eyniləşdirilmələrinə sovet tarixşünasları az çalışmamışdırlar. Milli olana qısqanclıqla yanaşılan bir dövrdə "Bəs Babəkin populyarlığına niyə imkan verilmişdi?" sualımız ritorikdir. "Sabit Rəhman "Ərəboğlu" ləqəbini zəmanəsinin tələbinə uyğun olaraq yaratmışdır, yoxsa qan yaddaşında qəsbkar, düşmən, işğalçı arxetipinin funksiyasını gerçəkləşdirmişdir?" sualı bizim üçün açıq qalır.

Nəzərə almaq lazımdır ki, K.Q.Yunqun nəzəriyyəsinə əsasən böhran vaxtlarında gündəlik həyatda təzahür edilən arxetiplərə əks arxetiplər üzə çıxır – qəhrəman kölgə olur, kölgə isə qəhrəman.

Hər şeyin adı olar, illah da ki insanın. Milli yaddaşımızın dərin qatlarında adqoymanın ayin, ritualla, deməli, həm də sakrallıqla bağlılığı hifz edilir. Dədə-babadan igidlik göstərdikdən, xeyir iş gördükdən sonra ad qazanan şəxs sosiumun tam hüquqlu üzvünə çevrilirdi. Ritual yeni, daha üstün statusa yol açırdı. Mənfi qəhrəmanın şəxsi addan məhrum edilməsi milli kollektiv şüursuzluqda statusdan məhrum edilməsi, ad qazana bilməməsi bacarıqsız, faydasız və dışlanmış olması deməkdir.

Sabit Rəhmanın təxəyyülündə "ölü"-"diri" əksliyinin "gecə"-"gündüz", "qaranlıq"-"işıq" semantik cərgəsindəki "ölü", "gecə", "qaranlıq" uyğun şəkildə funksiyalaşır. Qaranlıqda yaşayan, bayquşla eyniləşdirilən, qara rəngli və qara əməlli Ərəboğlu elə əvvəldən "ölümə" məhkum edilib. Hekayədə Ərəboğlu ilə öz adamı dərğanın diqqətçəkən dialoqu verilib. "Darğa: ...pərdə-zad çəkiblər, bu saat orda həngamə çıxardırlar. ...Ərəboğlu: ...nə həngamə çıxardırlar? ...Darğa: ...sənin şəbehini çıxardırlar. – Mən imam Hüseynəm ki, şəbehimi çıxartsınlar?" (1, s.279). İmam Hüseynin aqibəti şəbeh tamaşalarından və tarixdən bəllidir. Digər mətnləri, motivləri, allüziyaları, sitatları ehtiva edən intertekstuallıq Sabit Rəhmanın mətnində Ərəboğlu-Otello-imam Hüseyn trenarlığında üzə çıxır. Birmənalı "qatil-şəhid" əksliyinə Otellonu yerləşdirir. Sanki çatdırmaq istəyir ki, Ərəboğlu quldurluğa çərxi-fələyin dönməsindən baş qoşubdur, görkəmli sərkərdə Otellonun qatilə çevrilməsi kimi.

Milli kollektiv təhtəlşüurda beş rəqəminin özəl yerə aid olması Sabit Rəhmanın sözügedən hekayəsində özünəməxsus şəkildə təzahür edir. İslamöncəsi dövrə, İslam və sovet dövrünə aid arxetipik obrazlar fərdi təhtəlşüurda özünəməxsus şəkildə gerçəkləşirlər. Dünyanı nizama salmaq, yenidən təşkil etmək asan olmasa da, dağılmış sistemin özünütəşkilə, özünüdüzənə meyli şüurdan asılı deyil.

"Ərəboğlu həqiqətən zənci kimi qapqara, yekəsifət, yekəburun, eybəcər bir kişi idi, beş

adamdan ibarət dəstəsi ilə bərabər meşədə, fısıllıq bir yerdə oturmuşdur” (1, s.279). Məlumdur ki, müsəlman aləmində “beş” rəqəmi islamın şərti – kəlməyi şəhadət, namaz, oruc, həcc, zəkat; Məhəmməd peyğəmbərin ailəsi – Əhli-beyt; “Üsulidin” – Tövhid, Ədl, Nübuvvət, İmamət və Məada; dini mərasimlərdə simvolika kimi qəbul edilən və Səfəvi dövlətinin iqtidar simvolu olan əl formasında “ələm”i; gündə beş dəfə qılınan namazı ifadə edir. Ərəboğlunun dəstəsi beş nəfərdən ibarətdir. Dəstə üzvlərinin sayı təsadüfən beşdir yoxsa... şüursuzluqdakı “özümkü”-“yad” arxetipik anlayışının simgəsidir? Rəqəmi Sovet rejiminin islam dəyərləri üzərinə xəttçəkmə siyasəti ilə də əlaqələndirmək olar, “yad” obrazının formalaşmasında daha dərin köklərin mövcudluğu ilə də. İşğalçı “yad”ların kulturoloji görüşlərindəki “beş” rəqəminin sakrallığına etirazın latent forması bədəməlli dəstə üzvlərinin sayı vasitəsilə profanlaşdırılır. Ərəboğlunun “beşliyi” – köhnə aləmlə səsləşən nişanədir. Beləliklə, məntiqi sonuc. Üstəgəl zəmanənin tələbi.

Əsərdə islamla bağlı kiçik bir nüans var – “Cümə günü olduğu üçün bank bağlı idi” (1, s.281) cümləsidir. Cümə, bildiyimiz kimi, həftənin beşinci günüdür. Sovet hakimiyyəti dövründə istirahət günü bazar günü olduğu halda, əsərdə hadisələrin 1922-ci ildə cərəyan etdiyindən sovet qaydalarının hələ tam oturuşmadığı aydınlaşır. Ərəboğlunun evində dövlət bankı yerləşdirilib, bank cümə günü işləmir. Ərəboğlunun taleyi cümə günü həll ediləcək, günü ateist revkom Məbud təyin etmişdir. Ərəboğlunun ələ keçirilmə günü əsrlər boyu xalqın dini görüşü ilə bağlı həftənin beşinci gününə təsadüf etməsi və həm məcazi, həm də müstəqim mənada “şəbeh” çıxartmaqla, həngamə çıxartmaqla sakrallığı adiləşdirməkdir. Bunu zəruri edən triksterlik funksiyasıdır.

“Müdrik qoca” arxetipinə xas ambivalentlik revkom Məbud kişinin “həngamə çıxartmasında" özünü büruzə verir. Yazıçı yeni – ateizm dövrünün məbudu-xilaskarı – Məbudunun dili ilə köhnə dünyanı təmsil edən Ərəboğlunu xalqın sitayiş etdiyi məbudlardan biri – Məhəmməd peyğəmbərin nəvəsi Hüseynə bağlayır. Hekayədə Hüseynin qətlini nümayiş edən xalq misteriyasını ifadə edən “şəbeh” sözü burada sarkastik – “toy tutmaq”, “başına oyun açmaq” mənasında işlədilir. Şəbeh – teatr çıxardan artistlər Məbudun dadına çatır, həm də Məbud kişi:

“ – Götürün gəlini də, onun cehizini də aparaq, bir yaxşı toy eləyək” deyir” (1, s.282).

Analitik psixologiyada qorxulu, sarsıdıcı şeyin dəfələrlə müxtəlif variasiyalarda konstruksiya edib onunla üzləşərək çözmək metodundan istifadə edilir. Zəmanəsinin geniş mənada “qara”lığını dərk edərək, “qara” rənglə arxetipik çözüm oyununu davam edən Sabit Rəhman ən məşhur zənci, mavr ilə, yəni Otello ilə maraqlı assosiasiya təqdim edir. Ərəboğlunu ələ keçirmək üçün revkom aktyorlara “Otello” faciəsinin adını “Ərəboğlu” adına dəyişdirərək teatr çıxarmaqlarını və afişada “Hal-hazırkı həyatdan götürülmüş şiddətli komediya” (1, s.277) sözlərinin yazılmasını təklif edir. Aktyorun “Komediya?” təəccübünə “Müdrik qoca” arxetipinin yeni variativ lokal personajı revkom: “Əgər fikirləşsən, görərsən ki, bütün faciələrin axırı komediya ilə qurtarır” (1, s.277) cavabını verir. Triksterin funksiyalarından olan oyunçuluq birbaşa olmasa da, dolayısı ilə ifadə edilib. Hekayədə hadisələr – mərəkə, həngamə trikster – quldurun sayəsində cərəyan edir. Nə fərqi var ki, hansı ərəb oğlu oyun çıxardacaq?! Şekspirin Otellosu, yoxsa Rəhmanın Ərəboğlusu.

Hekayədə ambivalentlik xüsusiyyəti hər iki arxetipdə təzahür edir – “ağsaqqal” da, “trikster” də oyun qaydalarına uyğun bir-birini aldadıb qalib olmaq istəyirlər. Revkom Məbud kişi də trikster kimi “Otello”-“Ərəboğlu” tamaşa – həngamə qurur, hiylə işlədir Ərəboğlunu həbs etsin.

Yuxarıda qeyd etdiyimiz kimi, “müdrik qoca”-“trikster” oppozisiya variantlarından biri də “sakral”-“zorakılıq”dır. Yazıçı qələmindən çıxan Məbud (sakral)-quldur (zorakılıqla məşğul olan) qarşıdurması “xeyir”lə-“şər”in, mədəni qəhrəmanla-triksterin arxetipik mübarizəsinin davamıdır.

Qeyd edilən arxetip binar əksliklər hekayənin konstruksiyasında strukturlaşmanı təmin

edirlər. Ümumiyyətlə, K.Q.Yunq hesab edirdi ki, əsər onu yaradandan daha üstün, mürəkkəb və dolğundur. Azərbaycan xalqının keçdiyi ağır dönəmlərə aid bir epizodun sovet rejiminin tələblərinə uyğun təsvir edilməsi hekayənin dilində təzahür edən və əbədi işlək qalan konseptlərə mane olmadığı qənaətindəyik. Tədqiq edilən mətndə şüurdan kənar, lakin zahiri aləmin təsirinə insan reaksiyasının mexanizmini müəyyən edən mövcud universal invariant strukturlar aşkar edilmişdir. Əsərdə Şərin, Kölgənin, Qaranın formasından, zəmanəsindən asılı olmayaraq məğlub edilməsi, Xeyirin, İşığın isə təntənəsi təmin edilmişdir.

**Nəticə:** Beləliklə, Sabit Rəhmanın bədii təfəkkürü mövcud şəraitə adaptasiyasında milli olanları qoruyub saxlamışdır. Milli invariantların qorunub saxlanılması milli simadan məhrum olmamağa xidmət etməklə bərabər, milli özünüdərkə və identifikasiyaya yol açır. Onları bacardıqları qədər yaşadanlara, o cümlədən Sabit Rəhmana borcumuz var.

## Ədəbiyyat siyahısı:


1. Rəhman, S. Seçilmiş əsərləri: [2 cilddə]/ S.Rəhman. – Bakı: Avrasiya Press, – c.2. – 2005. – 328 s.
2. Aydın, F. Uygur halk anlatılarında sayı simgeciligi// Trabzon: Karadeniz Uluslararası Bilimsel Dergisi, – 2019. Sayı 44, – s. 209-217.
3. Schimmel, A. Sayıların Gizemi/ A.Schimmel; çev. M.Küpüşoğlu. – İstanbul: Kabalcı Yayınları, – 2000. – 338 s.
4. Леви-Строс, К. Структурная антропология: [Пер. с фр.] / К.Леви-Строс; отв.ред.: Н.Буганов, В.Иванов. – Москва: Наука, – 1983. – 535 с.
5. Юнг, К. Архетип и символ / К.Юнг. – Москва: Ренессанс, – 1991. – 304 с.
6. Юнг, К. Психологические типы/ К.Юнг. – Санкт-Петербург: Ювента; Москва: Прогресс-Универс, – 1995. – 714 с.
7. Schimmel, A. The Mystery of Numbers (Oxford Paperbacks)/ A.Schimmel. – London: Oxford University Press, – 1994. – 336 p.



**Нигяр Рустамова**


## Принципы реализации функций «Мудреца» и «Трикстера» в художественном творчестве Сабита Рахмана


**Резюме:** Статья посвящена анализу и реализации функций архетипов «Мудрец» и «Трикстер» на основе теории архетипов и бинарной оппозиции в рассказе Сабита Рахмана «Арабоглу». Трансформация этих архетипов прослеживалась на национальных инвариантных примерах. Функции “Мудрец” – “Трикстер” раскрываются в бинарной оппозиции «Мудрый старик» – «Разбойник», “Ревком Мабуд” (революционный комиссар) – “Арабоглу”. Выявляются универсальные инвариантные структуры, которые отражают бессознательную реакцию человека на внешний мир.



**Ключевые слова:** бинарная оппозиция, архетип, коллективное бессознательное, «мудрец», «трикстер»

**Nigar Rustamova**

## Principles of implementation of functions of “Wise old man” and “Trickster” in the artistic creation of Sabit Rahman

**Summary:** The Article is focused on analysis and realization of principles of archetypes “Wise Old Man” and “Trickster” based on archetype theory and binary opposition in Sabit Rahman’s “Araboglu”,. Transformation of these archetypes was traced in national invariant examples - “Wise Old Man” – “Trickster” are realized in binary opposition in “Wise Old Man” – “Robber”, “Revkom Mabud” (Revolutionary Commissar) – “Araboglu”. Revealed universal invariant structures reflect a person’s unconscious reaction to the external world.

**Key words:** binary, opposition, archetype, collective unconscious, the wise old man, trickster